# QARABAĞA QAYIDIŞ VƏ BİOTƏHLÜKƏSİZLİK

**Səadət Xudaverdiyeva**

*Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin Molekulyar Biologiya və Biotexnologiyalar İnstitutu, x.r.seadet3iaea@gmail.com*

Doğma Qarabağ torpaqlarına möhtəşəm qayıdış və məskunlaşma cəmiyyətimizin bütün təbəqələrinin, o cümlədən elm adamlarının qüvvələrinin səfərbər edilməsini tələb edir və biotəhlükəsizliyin təmin edilməsi istiqamətində bizim üzərimizə düşən bir sıra məsuliyyətlər vardır.

Biotəhlükəsizlik, əgər məhdud çərçivədə iş yerlərində işçilərin bioloji agentlərdən (patogenlərdən) və toksinlərdən qorunmasıdırsa, geniş anlamda o, bütövlükdə insanların və ətraf mühitin belə təhlükələrdən mühafizə edilməsini nəzərdə tutan bir yanaşmadır.

Biotəhlükəsizlik məsələlərinin aktual olduğu bir istiqamət də müasir biotexnologiya elminin nəticəsi olaraq yaradılmış və müxtəlif işlənmə mərhələlərində olan orqanizmlərin təhlükəsiz emalı, daşınması və istifadəsi zamanı təhlükəsizliyin təmin edilməsidir.

Biotəhlükəsizliyin bu aspektləri 2003-cü ilin sentyabr ayında qüvvəyə minmiş və BMT-nin 1992-ci ildə qəbul edilmiş "Biomüxtəliflik haqqında Konvensiyası"nın Əlavəsi olan Biotəhlükəsizlik haqqında Kartaxen Protokolunda təsbit edilmişdir. Protokolun 20-ci maddəsinin a) bəndində deyilir ki, modifikasiya olunmuş orqanizmlərə dair elmi, texniki, təbiəti mühafizə və hüquqi informasiya və təcrübə mübadiləsinin təşviq edilməsi məqsədilə bu Protokol təsis edilir.

Qarabağ ərazisinin işğal altında olduğu 30 ildən də artıq bir müddətdə, nəzarətsizlik şəraitində, həm biotoplara, həm də canlıların biomüxtəlifliyinə hansı müdaxilələrin olması, hansı laboratoriyaların fəaliyyət göstərməsi (o cümlədən heyvanlar üzərində aparılan və potensial olaraq, zoonoz xəstəliklərin ətraf mühitə yayılma riskini yaradan) və bu laboratoriyalarda aparılan işlərin xarakteri haqqında məlumatların olmaması, biotəhlükəsizlik baxımından ciddi risklərlə bağlıdır.

Bu baxımdan işğaldan azad olunmuş Qarabağ ərazisi, bütün mümkün risklərin qarşısının alınması məqsədilə, minalardan təmizləndikcə, davamlı monitorinq edilməli, istisnasız olaraq - fəaliyyətdə olan və ya fəaliyyəti dayandırılmış - bütün müəssisələr biotəhlükəsizlik üzrə tədqiqatların obyekti olmaqla öyrənilməli və onlar haqqında əldə olunan məlumatlar ciddi şəkildə təhlil edilməli və müvafiq tədbirlər görülməlidir.

Ərazinin ekosistemlərinə introduksiya edilmiş bitkilərin, anbarlarda saxlanılan toxum materiallarının, eləcə də, biotopun müxtəlif komponentlərində aşkar olunan mikroorqanizmlərin müxtəlif DNT markerlərdən istifadə edilməklə genotipləşdirilməsi (Genotyping), həm təbii formaların, həm də genetik modifikasiya olunmuş orqanizmlərin müəyyənləşdirilməsinə imkan yaradır. Bu tədqiqatlarda əldə edilən məlumatlar biotəhlükəsizliyin təmin edilməsinə yardım edər, eləcə də ərazinin biomüxtəlifliyinin Qarabağ və ərtraf rayonların təsərrüfatlarında becərilən yerli sortların qorunmasında müstəsna rol oynayar. Qarabağ işğala qədərki dövrdə həmişə özünün yüksək keyfiyyətli sortları ilə tanınmışdır.

Ümumiyyətlə, dünya üzrə GM bitkilərin becərildiyi əkinlərin sahələri çox böyük sürətlə artmaqdadır. GM bitkilərin becərilməsi ətraf mühitin biomüxtəlifliyinə təsir edərək, bir sıra problemlərə gətirib çıxara bilər. Məsələn:

- GM bitkilərin yaradılması zamanı onların genotipinə daxil edilmiş antibiotiklərə qarşı
- davamlılıq genlərinin torpaq mikroorqanizmlərinə horizontal transferi baş verə bilər;
- Təbii formaların tozlanmasında iştirak etməklə, transgenin "sızması" baş verir və
- getdikcə təbii formaların yayıldığı sahələrin azalmasına və yox olmasına gətirib çıxarır (burada GM bitkilərin genotipində müxtəlif davamlılıq genlərinin olması böyük rol oynayır);

- Həşəratlara davamlılıq genləri daxil edilmiş transgen bitkilərdə sintez olunan insektisid zülalların ərazinin faunasına təsir etməsi və beləliklə də, qida zəncirlərinin dağılması təhlükəsi reallaşır və s.

Bir çox tədqiqatlar göstərir ki, GM bitkilər ərazilərin həm flora, həm də faunasına mənfi təsir göstərir və deməli, ekosistemlərin davamlılığını azaldır.

Beləliklə, biotəhlükəsizlik qida məhsullarının təhlükəsizliyinin təmin edilməsi, ətraf mühitin mühafizəsi (ilk növbədə biomüxtəlifliyin qorunması), dayanıqlı kənd təsərrüfatının yaradılması, insan sağlamlığının qorunması məsələləri ilə birbaşa bağlıdır və bu sahələrdə potensial risklərin idarə olunması üçün normativ-hüquqi əsasların olmasını tələb edir. Qarabağ ərazisində aparılacaq geniş profilli elmi tədqiqatların nəticələri bu əsasların yaradılması üçün bir zəmin olacaqdır.